* * *

Ey bədri-münir, açgiz tərəfi-niqab,
Ruyin görəli,
Kipriklərim ox şanəvü göz suyi gülab,
Muyin urali.
Gördüm səni bir ərbədəcu məstü xərab,
Bəd məst ola dib.
Hərdəm gəlürəm kuyina mən bixurü xab,
Xüyün soralı.
Qış gəldi geyər kim ki anın aqçəsi bar,
Səncabü səmur.
Səncabü səmur olmayana çarə nə bar,
Bir künçi-tənur.
Bir issicə ev bulğayu bir kiçkinə yar,
Bir küp dolu mey.
Bir şiş kabab olsavü bir nimeyi nar,
Vəh-vəh nə hüzur,
Heç yerdə işin önükməz əgər deməyəsən
Bismillah.
Ər himməti bolməzsən əgər qılmiyəsən
Allah, Allah.
Mümkün iməs ol ki, tabğəsən cilveyi-vəsl,
Cananə bilən
Qul Kişvəri tək canını ta qılmiyasan
Billah, Billah.

* * *

Ey saçı bənəfşə, yüzü gül, kakili ənbər,
Ey hüsni ğəzalə,
Zülfün şəbi-zülmatü yüzün mahi-münəvvər,
Xəttin anə halə.
Yüzün bilə qəddin irür, ey nəxli-behişti,
Sən badə içərkən,
Andaq ki, gətürdi sanasan şaxi-sənubər,
Bir dəsteyi-lalə.
Ol səbzeyi-xəttdir ki, ləğindən içədür su,
Ey çeşmeyi-heyvan
Kim, Xızrdan özgə ola bilməz kişi rəhbər,
Ol abi-zülalə.
İqrar qılıbmən ki, sana bəndədürür mən,
Uş mərdümi-didə;
Rüxsareyi-zərdim vərəqinə yazadurlar,
Qan birlə qəbalə.
Fəryadü fəğan eylədim, ey vay ki, yetməz,
Fəryadıma heç kim.
Kim qəmzə bilə çehel saləmi talar,
Bir çardəh salə.
Təqvavü vərə'-xəlvətidən çəkdi çıxardı,
Mən bəxti-qəranı;
Avareyi-səhrayi-cünun eylədi axər,
Bir mişki kəlalə.
Qul Kişvərini istər isən qurtula bir dəm
Əyyami-qəmindən.
Lütf eyləgil, ey saqi, ana badeyi-əhmər,
Bir dolu piyalə.

* * *

Ey nihali-qamətin sərvi-xuramanım mənim,
Vey cəmalın gülşəni firdovsi-rizvanım mənim,
Canuna bolsun fəda yüz natəvan canım mənim,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.

Naləm ucaldu yetirəm sən sərv boylu mah içün,
Can veridür mən damədəm sən büti-dilxah içün.
Qıl inayət, yüzünü görsət mənə Allah içün,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.

Başimə ey dilbəri-gülçöhreyi-şümşadi-qəd,
Gəldi sənsiz ləşkəri-ğəm, bihesabü bi ədəd.
Hicrin öldürdü məni səndən umarmən bir mədəd,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.

Xətti-səbzin gülbəni-firdovsinin yaprağıdır,
Həlqeyi-zülfün məni-divanə könlüm bağıdır.
Gör nə halə düşmüşəm sənsiz, mürüvvət çağıdır,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.

Payimal etdi məni eşqin yolunda ruzigar,
Vəh ki, nə aram qaldı məndə, nə səbrü qərar.
Qıl həzər bu atəşi-ahi-dilimdən zinhar,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.

Qılma bu dərgahidən nomid məni-biçarəni
Kim, salubdur dərbədər mən bidili-avarəni,
Vəh ki, oda yaxlıydım bu dili-sədparəni,
Ha bəgim, ha padişahım, ha gözəl xanım mənim.